***Yaqub Məğrur***

## ***Xocalı***

Türkün qəhrəmanlıq salnaməsində,
Tarixə həkk olmuş anddı Xocalı.
Qarlı-qiyamətli qış gecəsində,
Nahaqdan tökülmüş qandı Xocalı.

Plan hazırlandı rus alayında,
Doxsan ikinci il fevral ayında,
Vəhşi erməni-rus vur-harayında,
Od tutub alışdı, yandı Xocalı.

Gülləyə tuş gəldi ər ərənləri,
Əsir götürüldü qız-gəlinləri,
Dünyaya mərd gəlib, mərd gedənləri,
İtirib poladtək sındı Xocalı.

Çarpışdı erməni dığalarıyla,
Səs saldı aləmə haraylarıyla,
Yüzlərlə körpə türk cocuqlarıyla,
Soyuqdan səngərdə dondu Xocalı.

Sonuncu yüz ildə üç soyqırım var,
Xatın, Xirosima yarası sızlar.
Məğrur da Xocalı deyib haraylar,
Tifaqı dağılmış xandı Xocalı.

***Məğrur Y. Xocalı : şeir // Gəlirəm Qarabağ. – Bakı : Yazıçı, 2014. – S.27.***